# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 456** **Bakı şəhəri, 17 oktyabr 2018-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 13 iyun tarixli 138 nömrəli qərarı ilə təsdiq edilmiş "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiya mərkəzlərinin yaradılması haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə***

"Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1146-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 iyul tarixli 270 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 13 iyun tarixli 138 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 6, maddə 590; 2010, № 4, maddə 359) ilə təsdiq edilmiş "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiya mərkəzlərinin yaradılması haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 2.4.6-cı yarımbənddə "orta peşə-ixtisas və texniki-peşə təhsili" sözləri "peşə təhsili və əlavə təhsil" sözləri ilə əvəz edilsin;

2. 2.4.8-ci yarımbənddə "tərbiyə" sözü "təhsil" sözü ilə əvəz edilsin.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***